Ədalət. - 2026.- 13 mart (№10).-S.11.

Seyran Səxavət-80

# Mən onunla tanış olanda haradasa 50 yaşı olardı



*Rafiq Həşimov*

...Rəşid Behbudov adına mahnı teatrı.

...Teatrın direktoru Niyazi Aslanovun dəvəti ilə teatrın səhnəsində keçiriləcək yubiley gecəsinin ssenarisi, quruluşu və tərtibatı üzərində işləyirik.

...Direktorun otağı...və birdən...bir az xırıltılı, xoş, qulağayatımlı səsə başımı kağızdan qaldırıram--"salam, mamoğlu!". Dostları ilə görüşən Niyazinin gülüşünün bütün sifət cizgilərində şırım açan siması heç vaxat yadımdan çıxmır.

...Masadan dik qalxır, gələn adama tərəf qollarını geniş açaraq onu qucaqlayır və mənə çevrilib: "Rafiq, böyük yazıçımız Seyran Səxavət!"- deyir...Mənə işarə ilə Seyran müəllimə -"bu cavan oğlanı yəqin televizorda görmüsən..."- deyərək təqdim edir.

Bir azdan daha bir möhtəşəm, bir dəfə dinləyənin heç vaxt yadından silinməyəcək səs eşidilir: -- kepkasını çıxarıb gülümsəyərək heca-heca uzada-uzada--"sa-laam əleey-küm" kəlməsiylə öz məhrəm məkanına daxil oilurmuş kimi asta addımlarla içəri girən Fuad Poladov...Bir gündə iki şəxsi tanışlıq (əlbəttə, mən bu iki böyük sənətkarı tanıyırdım).

...Bir neçə il televiziyada çalışan cavan bir adam üçün xoşbəxtlik deyilmi? Mənim az qala atam yaşında olan insanlar.

Bir az ordan-burdan söhbət, zarafatlar və bütün bunların bir neçə dəqiqədən sonra yaxınlıqdakı "Bakı" restoranında davamı...

Atamın "hər şeyin öz yeri var" üsuli-tərbiyəsi aramızdakı yaş fərqini sanki hiss etdirmirdi.

...Beləcə, Niyazinin "ocağında" alışan bu münasibət illərlə gəlib öz adi halına yetişdi.

...Dostluq-Yaradanın insana verdiyi ən gözəl nemətlərdən biridir. Bircə dənə də resepti var: Təmənnasızlıq, Allah xatirinə dostluq,

Allahın yaratdığını səmimi qəlblə sevmək!

...Qədimdə "simposi" adlanan bu mərasimlər "ayda bir yol-həftədə bir yol" nəğməsi kimi həyatımızda səslənirdi. Bəzən bu kvartet böyüyürdü--Faiq müəllim, Gülağa, Hətəm müəllim və daha kimlər, kimlər... Mən də bu insanlıq, sənət məktəbi ünsiyyətindən xeyli həyati materialla tanış olurdum, öyrənirdim.

...Niyazi hər dəfə məclisin sonunda özündən başqa heç kimə xas olmayan ədası ilə, yaraşıqlı boy-buxunu, altmışıncılar nəslinin parlaq, pafosdan kənar intonasiyası ilə: "Bizim dostumuz Rafiqin bir çatışmayan cəhəti var-çox cavandır...Amma bu, tezliklə keçəcək."-deyib ürəkdən elə gülürdü ki...

İndi dünyada belə işıqlı gülüş tapmaq çətindir.

...Seyran müəllim "uşaqlıq əminliyini və intuitiv sədaqət hissini qoruyub saxlayan" insanlardandır. Ən çətin məsələlərdən biri, bəlkə də elə birincisi, bu deyilmi?!

...Mən durub bu yazıda Seyran müəllimin əsərlərinin ədəbi-bədii məziyyətlərindən danışsam, mənə elə gəlir ki, bu barədə ədəbiyyatşünasların fikirləri daha inandırıcı və sanballı olar.

...Mən yalnız əsl ədəbiyyatı hiss edən, sevən oxucu kimi bəzi təəssüratlarımı bölüşmək istərdim.

...Seyran müəllimi oxuyanda elə bilirəm ki, söhbət açılan mətləb mənə danışılır. Və danışanın səmimi olduğuna görə, inanıram ona.

...Seyran müəllimin mətnlərində yumor hissi, düşünürəm ki, ayrı bir araşdırma mövzusu ola bilər.

...Seyran müəllim yazıçı sözünü tale kitabı kimi bütün məsuliyyəti ilə həyatın dolanbaclarıyla çiyinlərində daşımaqdan yorulmayan güclü bir şəxsiyyətdir.

...Seyran müəllim Azərbaycan insanının mənəvi-bioloji-fiziki anatomiyasını yaxşı bilən və onu sevərək həmişə gözəl görmək istəyən bir qələm sahibidir.

...Əziz Seyran müəllim, Sizə uzun, sağlam ömür arzulayıram. Və Allahdan diləyirəm ki, son nəfəsinizə kimi qələm əlinizdən düşməsin. Yaşayın, yazın, yaradın. Çünki sözün devalvasiyaya uğradığı çağdaş dövrdə əsl yazıçı sözünə çox ehtiyac var.